# DTX-nin Akademiyasında elmi-praktiki konfrans

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında Zəfər Gününə həsr olunmuş "Zəfərdən zəfərə, Azərbaycan!" adlı respublika elmi-praktiki konfransı keçirilib.**



DTX-nin Mətbuat xidmətindən bildiriblər ki, əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Akademiyanın ərazisində ucaldılan abidəsi önünə əklil qoyulub, dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiramla anılıb.

Sonra xüsusi təyinatlı ali təhsil müəssisələrinin rəhbər heyəti və konfrans iştirakçıları "Şöhrət" muzeyində ulu öndərin xüsusi xidmət orqanlarındakı fəaliyyətini əks etdirən eksponatlarla, həmçinin Akademiyada nəşr edilən kitabların sərgisi ilə tanış olublar.

Konfrans respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin unudulmaz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Səkkiz xüsusi təyinatlı ali təhsil müəssisəsinin rəhbərliyinin və professor-müəllim heyətinin iştirak etdiyi tədbirdə iştirakçılar Zəfər Gününə həsr olunmuş videoçarxa tamaşa ediblər.

DTX-nin Heydər Əliyev adına Akademiyasının rəisi, general-mayor Allahverən İsmayılov konfransda açılış nitqi ilə çıxış edərək, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsi nəticəsində Azərbaycan Ordusunun "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başlaması, ərazi bütövlüyümüzün bərpası və 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfərin dövlətçilik tariximizə qızıl hərflərlə yazılması barədə danışıb. Natiq həmçinin ötən müddətdə məhz ulu öndərin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizin hərtərəfli inkişafı və dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün əməli addımlar atılması, dövlətçiliyimiz üçün sarsılmaz təməllər yaradılması haqqında fikirlərini konfrans iştirakçıları ilə bölüşüb. Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər ilə Azərbaycan öz gücünü bütün dünyaya göstərərək tarixi ədalət uğrunda inamlı mübarizəsini nümayiş etdirib, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın birliyi, müzəffər ordumuzun gücü sayəsində, şəhidlərimizin canı, qanı bahasına əldə olunmuş bu Qələbə ilə dünya azərbaycanlılarının çoxillik həsrətinə son qoyulub.

Konfransda Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük general-mayoru Qulu Novruzov, DTX-nin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş əməkdaşları çıxış ediblər. Məruzəçilər Azərbaycan Ordusunun dünyanın hərb tarixinə yeni səhifə yazmasından, bu gün dünyanın qabaqcıl ölkələrində Azərbaycanın müharibə təcrübəsinin öyrənilməsindən bəhs edib, müasir döyüş avadanlıqlarının uğurla tətbiq olunduğu əks-hücum əməliyyatlarında əsgər və zabitlərimizin göstərdiyi şücaət və qəhrəmanlıqlardan, eyni zamanda, həmin günlərdə Azərbaycanın təkcə döyüş meydanında deyil, həm də informasiya müstəvisində apardığı mübarizədən, Prezident İlham Əliyevin baş verənlərlə bağlı həqiqətləri nüfuzlu xarici KİV-lərə müsahibələrində çatdırmasından, bununla da Ermənistanın yalanlarını ifşa etməsindən ətraflı söhbət açıblar.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 4 noyabr.- S.3.